# *Xaçmazlı tankçı:* "Qələbə xəbərini eşidəndə yaralarımı unutdum"

"Biz hamımız həmin günün gələcəyini bilirdik. Torpaqlarımızın azadlığı uğrunda döyüşləri səbirsizliklə gözləyirdik. Vətən müharibəsinin ilk günü ən çətin döyüşlərimizdən biri oldu. Düşmənin uzun illər ərzində möhkəmləndirdiyi ön xətti yarıb keçmək əsas tapşırıqlardan idi. Öhdəsindən gəldik. Amma təəssüf ki, qardaşlarımızı itirdik, şəhidlərimiz oldu. Bizim 131 nömrəli tankımız vardı. Həmin tank düşmən tərəfindən vuruldu. Taqım komandirimiz Ümüd Məmmədov, mexanik Bəxtiyar Bəkirov, tuşlayıcı Əjdər Sabirli həmin tankda şəhid oldular. Çox istərdim onlar da Zəfərimizi görsünlər".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Vətən müharibəsi qazisi, birinci qrup əlil Çingiz Vəçhiyev deyib.

Çingiz Məmməd oğlu Vəçhiyev 1987-ci il oktyabrın 14-də Xaçmaz rayonunun Əbilyataq kəndində anadan olub. Elçin Mövlamov adına Əbilyataq kənd tam orta məktəbində təhsil alıb.

2005-ci ilin oktyabrında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət keçib. 2007-ci ilin aprel ayında ordu sıralarından tərxis olunub.

2012-ci ildə Müdafiə Nazirliyinin Təlim Tədris Mərkəzində təşkil edilən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) hazırlığı kursunda sürücü-mexanik tankçı ixtisasına yiyələnib. 2012-ci ildən Silahlı Qüvvələrin Goranboydakı "N" saylı hərbi hissəsinin tank taborunda xidmət etməyə başlayıb.

Çingiz Vəçhiyev 2016-cı ilin Aprel döyüşlərində qəhrəmancasına vuruşub.

"Tankçı olmaq çoxdankı arzum idi. Hər dəfə televizorda döyüş kadr-



larında tankçıları görəndə deyirdim: "kaş mənə də qismət olaydı". Sonunda arzuma çatdım. Aprel döyüşlərində iştirak etdim. Döyüşçü yoldaşlarımdan yaralananlar, şəhid olanlar oldu. Mən də ayağımdan yaralanmışdım. Bir ay Gəncə hospitalında müalicə aldıqdan sonra xidmətimə qayıtdım. Aprel döyüşləri bizim Zəfər tariximizin başlanğıcı idi", - deyə Çingiz Vəçhiyev bildirib.

Qırx dörd günlük Vətən müharibəsi başlayanda tankçı Çingiz Vəçhiyev düşmənin üzərinə atılan ilk hərbi birləşmələrin tərkibində yer alıb. Xaçmazlı tankçı Tərtər, Ağdərə, Ağdam, Suqovuşan və Talış kəndi uğrunda gedən ağır döyüşlərdə cəsarətlə savaşıb.

Noyabrın 2-də Tərtər-Ağdərə istiqamətlərində gedən döyüşlər zamanı düşmən tərəfindən atılan minaatan mərmisinin yaxınlıqda partlaması nəticəsində ağır yaralanıb.

"Qəlpə onurğa sümüyümün yaxınlığından keçərək daxili orqanlarımı zədələdi. Ayaqlarımın işləmədiyini hiss etdim. Döyüş yoldaşlarımın köməyi ilə ərazidən çıxarıldım. Onurğa beyininin zədələnməsi və güclü sinir pozuntusu səbəbindən məndə tam hərəkət məhdudiyyəti yaranmışdı. Qəlpə qarın boşluğuna nüfuz etdiyindən bağırsaqlarım, qara ciyərim zədələnmişdi. Əməliyyatlar aparıldı. Sağ böyrəyim çıxarıldı. Respublika Klinik Xəstəxanasında, Müdafiə Nazirliyinin Mərkəzi Hospitalında müalicə aldım. Müharibənin qələbəmizlə bitməsi xəbərini hospitalda aldım. Qələbə xəbərini eşidəndə yaralarımı unutdum. 2021-ci ildə Türkiyəyə göndərildim və orada 9 ay müalicə aldıqdan sonra Vətənə qayıtdım. Hazırda fizioterapevtik müalicə davam edir", - deyə qəhrəman tankçı bildirib.

Döyüşlərdə göstərdiyi şücaətlərə görə Çingiz Vəçhiyev "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb. Onun xidmət dövründəki təltifləri arasında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalları və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və "Hərbi xidmətdə fərqlənməyə görə" medalları da var.

Çingiz Vəçhiyev ailəlidir. Övladları Nuray 12, Ömər isə 8 yaşındadır.

Azərbaycan. - 2025.- 1 oktyabr (№210).- S.12.